**15.11.2010**
**MƏNBƏ: [www.mcg.ge](http://www.mcg.ge)**
**http://www.mcg.ge/?i=37&l=1&i2=3443&year=2010&p=1**

# Gürcüstan Prezidenti Samtsxe-Cavaxetiya bölgəsində yenidən qurulmuş yola baş çəkdi.

## *Yolun Tikinti və Yenidən Qurulması İşləri Başa Çatıb.*




TBİLİSİ – 15 Noyabr, 2010 tarixində Gürcüstan Respublikasının Prezidenti Mixail Saakaşvili və ABŞ-ın Gürcüstandakı səfiri G.J.Bass Gürcüstanın Samtsxe-Cavaxetiya bölgəsində reabilitasiya edilmiş yola baş çəkdi.

Saat 11:00-da Prezident Saakaşvili Gürcüstanın Regioanl İnkişaf və İnfrastruktur Naziri, Minilliyə Çağırış – Gürcüstan fondunun və ABŞ Minilliyə Çağırış Korporasiyasının rəsmiləri və eləcə də podratçı şirkətin nümayəndələri ilə görüşdü. Sonra, Prezidetn Saqamo Gölü ətrafında agacəkmə mərasimində iştirak etdi.

Samtsxe-CavaxetiyaYolunun yenidən qurulması layihəsi çərçivəsində həyata keçirilən tikinti və yenidən qurma işlərini Minilliyə Çağırış Korporasiyası maliyyələşdirir və layihənin ümumi dəyəri 209 milyon ABŞ dollar həcmindədir. Geniş miqyaslı bu layihə Ölkənin cənub hissəsində, Samtxe-Cavaxetiya və Kvemo-Kartli bölgələrinin yol nəqliyat şəbəkəsini inkişaf etdirmək məqsədi ilə həyata keçirilmişdir. 2008-ci ilin yazında başlanan tikinti işləri nəticəsində mərkəzi Gürcüstanı Türkiyə və Ermənistana birləşdirən və ümumi uzunluğu 224 kilometr olan yolda yenidən qurma işləri aparılmışdır. Layihə çərçivəsində 15 körpünün və yolboyunca drenaj sisteminin yenidən qurulması işləri də görülmüşdür.

Tikinti işləri beynəlxalq tenderdə qalib gələn şirkətlər (Almaniya-Gürcüstana aid "Pepenburg/Qara Daniz Qrup", Azərbaycana aid "Azərinşaatservis" MMC və "Akkord İnşaat Sənaye"ASC) tərəfindən layihənin tələblərinə və beynəlxalq standartlara uyğun həyata keçirilmişdir. Tikinti zamanı istifadə edilən bütün materialların beynəlxalq satandartlara uyğunluğu labaratoriyalarda sınaqdan keşmişdir.

Yolun istifadə müddəti 20 ildir. Layihə başa çatdıqdan sonrakı təmir işlərini Gürcüstanın Regional İnkişaf ve İnfrastruktur Nazirliyinin Yol Departamenti öz üzərinə götürmüşdür.